**“Visa ilə futbol üzrə 2018-ci ilin dünya çempionatına hazır ol”**
**TİRAJLI STİMULLAŞDIRICI LOTEREYASININ KEÇİRİLMƏ QAYDALARI VƏ İŞTİRAK ŞƏRTLƏRİ**

1. Tirajlı Stimullaşdırıcı Lotereyanın təşkilatçısı “OMG Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyətidir, bundan sonra “Təşkilatçı”. Ünvan: 10-cu ofis, English Yard, Məmməd Araz 25A, Bakı, Azərbaycan. VÖEN 1301418021 Tel: +994 12 497 21 05

2. Tirajlı Stimullaşdırıcı Lotereyanın adı:
Təşkilatçının keçirdiyi Lotereya “**Visa ilə futbol üzrə 2018-ci ilin dünya çempionatına hazır ol**” adlanır.

3. Tirajlı Stimullaşdırıcı Lotereyanın keçirildiyi ərazi:

3.1. “**Visa ilə futbol üzrə 2018-ci ilin dünya çempionatına hazır ol**” Tirajlı Stimullaşdırıcı Lotereyası Azərbaycan Respublikası ərazisində və ondan kənardakı istənilən ticari-xidmət müəssisəsində, həmçinin, İnternet şəbəkəsində mallara və ya xidmətlərə görə nağdsız ödəniş əməliyyatlarının bu Qaydalar və Şərtlərə əsasən qeydiyyatdan keçirilənləri arasında keçirilir.

4. Tirajlı Stimullaşdırıcı Lotereyanın başlama və bitmə vaxtı:
Tirajlı Stimullaşdırıcı Lotereya 2018-ci ilin 30 aprel – 15 iyul tarixləri ərzində keçirilir.

5. Tirajlı Stimullaşdırıcı Lotereya bu adda məhsulların stimullaşdırılması məqsədilə keçirilir:
Tirajlı Stimullaşdırıcı Lotereya ticari-xidmət şəbəkələrində Visa bank ödəniş kartları ilə hesablaşmaların stimullaşdırılması məqsədilə keçilir.

6. Tirajlı Stimullaşdırıcı Lotereyanın İştirakçıları:

6.1. Tirajlı Stimullaşdırıcı Lotereyada 18 yaşına çatmış fiziki şəxslər, Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikası ərazisində daimi yaşayan şəxslər iştirak edə bilərlər.

6.2. Tirajlı Stimullaşdırıcı Lotereyada Təşkilatçı ilə əməkdaşlıq edənlər, bu şəxslərin həyat yoldaşları, yaxın qohumları, həmçinin, Tirajlı Stimullaşdırıcı Lotereyanın keçirilməsi üzrə komissiyanın üzvləri iştirak edə bilməzlər.

7. Tirajlı Stimullaşdırıcı Lotereyada iştirak üçün 30 aprel – 15 iyul 2018-ci il (daxil olmaqla) tarixləri ərzində aşağıdakılara əməl etmək lazımdır:

7.1. Azərbaycan Respublikasının banklarının buraxdığı Visa bank ödəniş kartlarından birini istifadə etməklə Azərbaycan Respublikası ərazisindəki və ondan kənardakı istənilən ticari-xidmət müəssisəsində, həmçinin, İnternet şəbəkəsində mallara və ya xidmətlərə görə 10 AZN və daha yuxarı ödəniş edərək nağdsız əməliyyat həyata keçirmək.

7.1.1. Uduşda bu tranzaksiyalar iştirak etmir:

- kommunal xidmətlərin internet və ya avtomatlar vasitəsilə ödənilməsi;

- mobil/stasionar telefon balansının internet və ya avtomatlar vasitəsilə artırılması;
- internetin və kabel TV-nin internet və ya avtomatlar vasitəsilə ödənilməsi;
- sığorta xidmətlərinin internet və ya avtomatlar vasitəsilə ödənilməsi;
- bank xidmətlərinin internet və ya avtomatlar vasitəsilə ödənilməsi;
- bankomatlarda və NPM (nağd pul verilmə məntəqələri) və (və ya) digər kredit-maliyyə müəssisələrində nağd pul vəsaitlərinin çəkilməsi və ya daxil edilməsi əməliyyatları;
- pul vəsaitlərinin bank hesabından fiziki və/və ya hüquqi şəxslərin hesablarına köçürülməsi;
- vergi ödənişləri və digər dövlət xidmətlərinin ödənilməsi üzrə əməliyyatlar;
- ləğv edilmiş/qaytarılmış alış-veriş üzrə əməliyyatlar;
- Tirajlı stimullaşdırıcı lotereya biletlərinin alınması, kazino və totalizator üzrə hesablar, yol qəbzlərinin, obliqasiyaların və qiymətli metalların, həmçinin, İnternet üzərindən alınması;
- pul vəsaitinin bank hesabından karta köçürülməsi;
- pul vəsaitinin kartdan karta köçürülməsi;

7.2. Tirajlı Stimullaşdırıcı Lotereyanın keçirildiyi müddət ərzində uduş keçirilənədək və qalibiyyət halında uduş təqdim edilənədək iştirak edən tranzaksiyanın qəbzini saxlamaq.

7.3. www.visa.com.az saytında (bundan sonra Sayt) qeydiyyat formasını doldurmaq və qəbzi 2018-ci il 00:00 30 aprel tarixindən 15 iyul tarixinədək (daxil olmaqla) qeydiyyatdan keçirmək. Qeydiyyat formasına mütləq doldurulmalı olan sütunlar daxildir: Kart sahibinin SAA (tam), əlaqə telefonu, nağdsız əməliyyatın həyata keçirildiyi tarix (iştirak edən kart-qəbzə uyğun olaraq), qəbzin məbləği və Visa kartını buraxan bankın adı.

7.4. Tirajlı Stimullaşdırıcı Lotereyanın qaydaları ilə tanış olmaq, qeydiyyat formasında müvafiq xanaları işarətləyərək şəxsi məlumatların yığılmasına və işlənməsinə razılıq vermək.

7.5. Tirajlı stimullaşdırıcı lotereyanın şərtlərinə uyğun olan hər iştirakçı tranzaksiya uduşunda iştirak edir. Hər yeni tranzaksiyanın qeydiyyatı Saytda yeni qeydiyyat formasının doldurulması ilə həyata keçirilir.

7.6. Unikal iştirakçı tranzaksiya Saytdakı qeydiyyat formasına bir dəfədən artıq daxil edildikdə o yalnız unikal nağdsız əməliyyat (tranzaksiya) məlumatlarının ilk daxil edilməsi faktına əsasən bir dəfə qeydiyyata alınacaq və uduşda bu qeydiyyat əsasında iştirak edəcək.

7.7. Tirajlı stimullaşdırıcı lotereya iştirakçılarının müəyyənləşdirilməsi kart sahibinin hər gerçəkləşdirdiyi və qeydiyyatdan keçirdiyi İştirakçı tranzaksiyaya əsasən həyata keçirilir. Tranzaksiyaların unikal qeydiyyat nömrələri Təşkilatçı tərəfindən Saytdakı qeydiyyat formasında məlumatların qeydiyyatdan keçirilməsi tarixinə və vaxtına uyğun verilir. Unikal qeydiyyat nömrələri 3 rəqəmdən 15 rəqəmə qədər ola bilər.

8. Uduş fondunun tərkibi və həcmi:

Tirajlı Stimullaşdırıcı Lotereyanın uduş fondu Təşkilatçının mülkiyyəti və pul vəsaitləri hesabına formalaşdırılıb. Uduş fondu ibarətdir:

| Kateqoriya | Ad | Miqdar, ədədlə |
|---|---|---|

| | | |
|---|---|---|
| Uduş | Brendə uyğunlandırılmış qara Adidas bel çantası (ölçüsü: 16sm x 28sm x 46sm, materialı: 51% təkrar emaldan keçmiş poliester/49% sadə toxumalı poliester | 230 |

9. Uduş fondunun uduşunun keçirilmə yeri, tarixi, vaxtı və qaydası, qalib gəlmiş Tirajlı Stimullaşdırıcı Lotereya iştirakçısının təyin edilməsi qaydası:

9.1. Uduşun keçirilmə vaxtında Tirajlı Stimullaşdırıcı Lotereya iştirakçıları (yəni, iştirakçı tranzaksiyalarını Saytda uğurla qeydiyyatdan keçirən şəxslər) barədə məlumatlar əsasında İştirakçı Siyahısı tərtib olunur. Hər iştirakçı tranzaksiyaya Saytdakı qeydiyyat formasında məlumatların qeydiyyatdan keçirilmə tarixinə və vaxtına uyğun olaraq ardıcıllıqla individual şəkildə unikal qeydiyyat nömrələri də olan siyahıya daxil edilir.

9.2. Uduşun keçirilməsi üçün xüsusi fırlanan barabandan və tranzaksiyaların qeydiyyat nömrələri əks olunmuş kağız zolaqlardan istifadə olunur. Komissiyanın tərkibindən kodun barabandan çıxarılması üçün katib seçilir. Komissiya Katibi barabandan bir kağız çıxarır. Çıxarılmış kağızda göstərilən qeydiyyat nömrəsi protokola daxil edilir.

9.3. 30 aprel-15 iyun 2018 tarixləri ərzində qeydiyyatdan keçirilmiş həm xaricdə, həm də ölkə daxilində ödəniş tranzaksiyalarının hər birinə bütün lotereya ərzində 1 şans verilir. Yalnız 15 iyun- 15 iyul 2018 tarixləri ərzində isə qeydiyyatdan keçirilmiş xaricdə ödəniş tranzaksiyalarının hər birinə isə 2 şans, ölkə daxilindəki ödəniş tranzaksiyalarının hər birinə isə 1 şans verilir. Yəni onların qeydiyyatdan keçirdiyi xaricdə ödəniş tranzaksiyasının qeydiyyat nömrəsindən barabanda 2 ədəd olacaq.

9.4. Tirajlı Stimullaşdırıcı Lotereya zamanı 3 uduş keçirilir

- ilk uduşda 100 qalib və əlavə olaraq 30 ehtiyat qalibi seçilir
- ikinci uduşda 65 qalib və 35 ehtiyat qalibi seçilir
- üçüncü uduşda 65 qalib və 35 ehtiyat qalibi seçilir

Uduş 2 etapda keçiriləcək, 1-ci etapda Visa kartıyla

9.5. Tirajlı Stimullaşdırıcı Lotereyanın uduş fondunun oynanılma tarixləri:

| Tirajın keçirilmə tarixləri | İştirak şərtləri | Uduşun mükafatı |
|---|---|---|

| | | |
|---|---|---|
| 1-ci tiraj: 20 iyun 2018 | 30 aprel (00:00) tarixindən 15 iyun (23:59) tarixinədək (daxil olmaqla) Azərbaycan Respublikasının banklarının buraxdığı Visa bank ödəniş kartlarından birini istifadə etməklə Azərbaycan Respublikası ərazisindəki və ondan kənardakı istənilən ticari-xidmət müəssisəsində, həmçinin, İnternet şəbəkəsində mallara və ya xidmətlərə görə ödəniş edərək nağdsız əməliyyat həyata keçirmiş və qəbzi visa.com.az saytında qeydiyyatdan keçirmiş iştirakçılar arasında keçirilir. | 100 ədəd brendə uyğunlandırılmış qara Adidas bel çantası |
| 2-ci tiraj: 4 iyul 2018 | 30 aprel (00:00) tarixindən 01 iyul (23:59) tarixinədək (daxil olmaqla) Azərbaycan Respublikasının banklarının buraxdığı Visa bank ödəniş kartlarından birini istifadə etməklə Azərbaycan Respublikası ərazisindəki və ondan kənardakı | 65 ədəd brendə uyğunlandırılmış qara Adidas bel çantası |

| | | |
|---|---|---|
| | istənilən ticari-xidmət müəssisəsində, həmçinin, İnternet şəbəkəsində mallara və ya xidmətlərə görə ödəniş edərək nağdsız əməliyyat həyata keçirmiş və qəbzi visa.com.az saytında qeydiyyatdan keçirmiş iştirakçılar arasında keçirilir. | |
| 3-cü tiraj: 18 iyul | 30 aprel (00:00) tarixindən 15 iyul (23:59) tarixinədək (daxil olmaqla) Azərbaycan Respublikasının banklarının buraxdığı Visa bank ödəniş kartlarından birini istifadə etməklə Azərbaycan Respublikası ərazisindəki və ondan kənardakı istənilən ticari-xidmət müəssisəsində, həmçinin, İnternet şəbəkəsində mallara və ya xidmətlərə görə ödəniş edərək nağdsız əməliyyat həyata keçirmiş və qəbzi visa.com.az saytında qeydiyyatdan keçirmiş iştirakçılar arasında keçirilir. | 65 ədəd brendə uyğunlandırılmış qara Adidas bel çantası |

Uduş fondunun uduşları Komissiyanın iştirakı ilə açıq şəkildə bu ünvanda keçirilir: 10-cu ofis, English Yard, Məmməd Araz 25A, Bakı, Azərbaycan.

10. Qalib gəlmiş iştirakçının məlumatlandırılması müddəti və üsulu, uduşun verilmə qaydası:

10.1. Hər uduş keçirildikdən sonra Təşkilatçı qaliblərə uduş barədə 7 gün ərzində zəng və ya SMS vasitəsi ilə məlumat verir.

10.1.1. Hər uduşda Təşkilatçı qaliblərə məlumat verdikdən sonra qaliblər Təşkilatçı ilə 7 gün ərzində +994 12 497 21 05 nömrəsi vasitəsilə əlaqə yaratmalıdırlar.

10.1.2. Uduşun qalibləri uduşları almaq üçün 10-cu ofis, English Yard, Məmməd Araz 25A, Bakı, Azərbaycan ünvanına saat 12:00-dan 19:00-dək tirajın uduş fondu oynandıqdan 7 iş günü sonra başlayaraq və 90 iş günü ərzində lotereya təşkilatçısına müraciət etməlidirlər. Qaliblər uduşlarını müraciət qəbul edildikdən sonra 30 iş günü ərzində əldə edə bilərlər. Uduşu almaq üçün müraciət edərkən qalib bu məlumatları təqdim etməlidir: şəxsiyyət vəsiqəsinin əslini və surətini, qalib gəlmiş nağdsız əməliyyatın (tranzaksiyanın) həyata keçirildiyi kart, əməliyyatın (tranzaksiyanın) unikal avtorizasiya kodu ilə, nağdsız əməliyyatın keçirildiyi məbləği və tarixi ilə müvafiq qəbz. Bu qəbz olmadıqda Təşkilatçı uduşlu tranzaksiya ilə bağlı əlavə sənədlər tələb etmək hüququnu özündə saxlayır.

10.1.3. Təşkilatçı tələb olunan məlumatlardan hər hansı birinin olmamasına görə məsuliyyət daşımır.

11. Qalib Təşkilatçı ilə göstərilən tarixədək əlaqə saxlamadıqda (köçdüyünə, yaşayış yerini və telefonunu dəyişdiyinə, xəstəliyə görə) mükafat haqqı ehtiyat qalibə - Tirajlı Stimullaşdırıcı Lotereya iştirakçısına keçir.

11.1. Əsas qalib Təşkilatçı ilə göstərilən tarixədək əlaqə saxlamadıqda Təşkilatçı ehtiyat qalibə uduş barədə zəng vasitəsi ilə məlumat verir.

11.2. Ehtiyat qalib məlumatlandırıldıqdan sonra 1 həftə ərzində Təşkilatçı ilə +994 12 497 21 05 nömrəsi vasitəsilə əlaqə yaratmalı və soyad, ad, ata adı, şəxsiyyəti təsdiq edən sənədin seriyası, nömrəsi, keçərlilik müddəti, sənədin verilmə tarixi və yeri barədə məlumatları bildirməlidir.

11.3. Uduşun dəyəri məbləğində pul kompensasiyası həyata keçirilmir.

11.4. Qalib uduşu almaq hüququnu üçüncü şəxsə vermək haqqına malik deyil.

11.5. Uduşu almağa iddialı Tirajlı Stimullaşdırıcı Lotereya Qalibləri onu almaq üçün Təşkilatçının təqdim etdiyi bütün lazımlı sənədləri imzalamağı və doldurmağı, Qaydalarda nəzərdə tutulmuş bütün şərtləri, həmçinin, uduşu almaq üçün lazım olan formallıqları yerinə yetirməyi öhdəsinə götürür.

11.6. Tirajlı Stimullaşdırıcı Lotereyanın Təşkilatçısı Uduşlar Qaliblərə verildikdən sonra yaranmış Uduşların zədələnməsi və onların istismarı halları ilə bağlı hər hansı bir riskə görə məsuliyyət daşımır.

12. Uduşların verilməsi üzrə digər şərtlər:

12.1. Aksiya təşkilatçısı uduşun qalibinin mükafatı vaxtında götürməməsinə görə məsuliyyət daşımır.

12.2. 1 İştirakçı uduşu yalnız 1 dəfə qazana bilər.

13. Tirajlı Stimullaşdırıcı Lotereyanın şərtləri və nəticələri barədə məlumat vermə qaydaları:
Tirajlı Stimullaşdırıcı Lotereyanın keçirilmə qaydaları Tirajlı Stimullaşdırıcı Lotereya başlamazdan əvvəl www.visa.com.az saytında, həmçinin, Visa-nın feysbukdakı səhifəsində (fb.com/visa) yerləşdirilir. Uduşların nəticələri haqqında məlumat hər uduşdan sonra 5 iş günü ərzində yayımlanır.

14. Tirajlı Stimullaşdırıcı Lotereyanın ümumi şərtləri:

14.1. Tirajlı Stimullaşdırıcı Lotereyada iştirak edən iştirakçı Qaydalarla və Tirajlı Stimullaşdırıcı Lotereyada iştirakın bütün şərtləri ilə tanış olduğunu və razılaşdığını təsdiqləyir.

14.2. Təşkilatçının Tirajlı Stimullaşdırıcı Lotereyanın keçirilməsi məsələləri ilə bağlı bütün qərarları, həmçinin, Tirajlı Stimullaşdırıcı Lotereyanın nəticələri qəti hesab olunacaq və bütün iştirakçılara aid ediləcək.

14.3. Tirajlı Stimullaşdırıcı Lotereyanın nəticələri qəti hesab olunacaq və heç bir mübahisənin obyektinə çevrilməyəcək.

14.4. İştirakçılar Tirajlı Stimullaşdırıcı Lotereyada iştirak edərək adlarının, ata adlarının, soyadlarının, şəkillərinin iştirakçıya heç bir uduş verilmədən Təşkilatçı tərəfindən reklam məqsədlərində istifadə ediləcəyinə razılıq verirlər. Həmçinin, İştirakçılar Tirajlı Stimullaşdırıcı Lotereya barədə reklam xarakterli müsahibələr verməyə də razılaşırlar.

14.5. İştirakçıların təşkilatçılıq və uduşun verilməsi ilə əlaqəli mümkün bütün iddiaları 10-cu ofis, English Yard, Məmməd Araz 25A, Bakı, Azərbaycan ünvanında yerləşən Tirajlı Stimullaşdırıcı Lotereya Təşkilatçısına ünvanlanmalıdır.
Təşkilatçı iştirakçılar və uduş almağa namizədlər arasında udulmuş uduşun sahibinin aydınlaşdırılması ilə bağlı mübahisələrə daxil olmur.

14.6. Visa şirkəti Tirajlı Stimullaşdırıcı Lotereyanın Təşkilatçısı deyil və Tirajlı stimullaşdırıcı lotereya Təşkilatçısının və iştirakçılarının bu qaydalara və tətbiq edilən qanunvericiliyə riayət etməməsinə görə məsuliyyət daşımır, Tirajlı Stimullaşdırıcı Lotereyanın iştirakçılarının iddialarına cavab vermir.